










# Tərcümə Mərkəzi Praqa Kitab Sərgisində

14-17 may tarixində keçirilən Praqa Kitab Sərgisində ölkəmizi Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi təmsil edirdi. Sərgi Sənaye şəhəri Praqanın Sərgi Mərkəzi - Holesovice 7 ünvanında yerləşir. Sərgi salonu üç zaldan ibarətdir. Ən böyük zal Beynəlxalq Zaldır. Bu il sərginin fəxri qonağı Misir Ərəb Respublikası idi. Misir Ərəb Respublikasının stendi sərgi salonunun tam mərkəzində, keçid qapılarına yaxın məkanda qurulmuşdu. Stenddə günün müxtəlif vaxtlarında Misir milli musiqiləri səsləndirilirdi. İkinci salonda daha çox uşaq ədəbiyyatı, azyaşlılar üçün əyləncəli nəşrlər nümayiş etdirilirdi.























# Tərcümə Mərkəzi Praqa Kitab Sərgisində

Hər salonda, eləcə də sərgi mərəzinin ikinci mərtəbəsində tədbir salonları vardı və gün ərzində səhər saat 11:00-dan 19:00 qədər burada müxtəlif məzmunlu tədbirlər keçirilirdi.

Sərgidə Fransa, Portuqaliya, Ukrayna, Serbiya, Çin, Tayvan, İsrail, Birləşmiş Ərəb Əmirliyi və s. ölkələr təmsil olunurdu.

Praqa kitab sərgisi nəşr palitrasının müxtəlifliyinə, poliqrafik rəngarəngliyinə görə seçilirdi. Uşaq nəşrlərinin poliqrafik icrası isə sadəcə möhtəşəm idi. Ən müxtəlif formalarda hazırlanan bu kitablar nəinki uşaqların, böyüklərin də nəzəri-diqqətini cəlb edirdi.

**Fərid Hüseyn**









